Məlumat üçün bildiririk ki, bu təşkilat dünyanın 130-dan artıq ölkəsindən olan tələbələrin Fransa ali məktəblərində təhsilini təşkil edir. Təşkilatın əsas funksiyası xarici vətəndaşların qəbul edilərək yaşayış yeri ilə təmin olunması, onlar üçün ödənilmiş təqaüdlərin paylanılması, xarici tələbələrin dil kurslarında və universitetlərdə yerləşdirilməsini təmin etməkdən ibarətdir.

2007-ci ilin yayında müvafiq Dövlət Proqramı çərçivəsində Təhsil Nazirliyi ilə KNOUS təşkilatı arasında Saziş imzalanıb. Sazişin şərtlərinə görə bu təşkilat Fransanın Bakıdakı səfirliyi ilə birgə orada təhsil almaq üçün göndəriləcək vətəndaşların ilkin seçim mərhələsini, eyni zamanda azərbaycanlı tələbələrin Fransada qarşılanması, dil kurslarında və universitetlərdə yerləşdirilməsi, yaşayış yerləri ilə təmin olunmasını həyata keçirir, həmçinin onların təqaüdlərini idarə edir.

Qeyd olunan Dövlət Proqramı çərçivəsində 2007-ci ildə 13, 2008-ci ildə isə 27 azərbaycanlı gənc Fransada təhsil almaq üçün həmin ölkəyə göndərilib.